# Şərqşünas alim Əhməd bəy Ağaoğlu mükafatina layiq görülüb



Azərbaycan Respublikasının Prezident İlham Əliyevin sərəncamı ilə bu il görkəmli ictimai xadim, publisist və tənqidçi, tanınmış hüquqşünas və şərqşünas alim Əhməd bəy Ağaoğlunun 150 illik yubileyi qeyd olunacaqdır. Azərbaycan Yazıçılar Birliyi ədəbiyyatımızın xaricdə təbliği ilə məşğul olan, eləcə də dünya ədəbi nümunələrini dilimizə çevirmiş, həmçinin ədəbi əlaqələr sahəsində mühüm işlər görmüş bir qrup tərcüməçi, naşir və ədibə XX əsr Azərbaycan ictimai-siyasi fikrində dərin iz qoymuş mütəfəkkir Əhməd bəy Ağaoğlunun adını daşıyan mükafat vermişdir.

Mükafatçılar sırasında AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru Məsiağa Məhəmmədi də vardır. O, böyük İran şairi Söhrab Sipehrinin "Suyun ayaq səsi" şeirlər kitabının tərcüməsinə görə bu mükafata layiq görülmüşdür.

"Suyun ayaq səsi" şeirlər toplusu bir neçə il əvvəl Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə "525 kitab" seriyasında nəşr olunmuş və elmi-ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır. Sonralar həmin toplu Tehrandakı "Təkderəxt" nəşriyyatı tərəfindən ərəb qrafikasında da çap edilmişdir.

Mayın 24-də Azərbaycan Yazıçılar Birliyində mükafatların təqdimetmə mərasimi keçirilib. Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin sədri Səlim Babullaoğlu bildirib ki, Söhrab Sipehrinin "Suyun ayaq səsi" şeirlər kitabının tərcüməsinə görə filologiya üzrə fəlsəfə doktoru Məsiağa Məhəmmədi, Tomas Sternz Eliotun "Bəhrəsiz torpaq" şeirlər və araşdırmalar toplusuna görə prof. Cavanşir Yusifli, "Dünya ədəbiyyatı" dərgisinin hazırlanmasına və nəşrinə görə ədəbiyyatşünas, tərcüməçi Seyfəddin Hüseynli, Azərbaycan ədəbiyyatı nümunələrinin polyak dilinə tərcüməsinə görə tərcüməçi İlahə Kərimova və Azərbaycan ədəbiyyatı nümunələrinin İranda təbliği və nəşri işinə görə naşir Səid Muğanlı mükafatlandırılıblar. Mükafatları Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar təqdim edib.